**MƏN AZƏRBAYCANIN TƏHLÜKƏSİZLİYİNƏ, İNKİŞAFINA VƏ SABİTLİYİNƏ CAVABDEHƏM**

*ALİ BAŞ KOMANDAN CƏNAB İLHAM ƏLİYEV*



# YENİ FİKİR

*NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR.*

*TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ*

*30 aprel 2024-cü il, çərşənbə axşamı*
*№: 4 (60)*
*Qəzet 2011-ci ildən çıxır*

## Akademik Rəhim Rəhimovun 100 illik yubileyi qeyd edilib



*Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, "Şöhrət" ordenli Rəhim Rəhimovun anadan olmasının 100 illiyinə həsr olunmuş "Nəsillərə nümunə" yubiley konfransı keçirilib.*

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və konfrans iştirakçıları əvvəlcə akademik Rəhim Rəhimovun universitetin Konservatoriya binasının qarşısında qoyulmuş büstü önündə xatirə fotosu çəkdiriblər. Qonaqlar incəsənət fakültəsinin tələbə və müəllimlərinin yaradıcılığından ibarət rəsm əsərləri ilə tanış olublar.



Sonra Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəhim Rəhimovun mənalı ömür yolunu, zəngin elmi və tibb fəaliyyətini əks etdirən sərgiyə baxış olub. Sərgidə nümayiş etdirilən elmi əsərlər Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin kitabxanasına təqdim olunub.

"Nəsillərə nümunə" yubiley konfransında əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransın işinə uğurlar arzulayaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi dövlət səviyyəsində geniş qeyd olunur. Təbii ki, yubiley ilində Naxçıvanın yetirdiyi görkəmli dövlət xadimlərinin, alim, ziyalı və ədiblərin, sənət adamlarının da ömür yoluna, xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinə nəzər salınır. Bu mənada, akademik Rəhim Rəhimovun anadan olmasının 100 illiyinin Naxçıvanda qeyd olunması əhəmiyyətlidir.

Fuad Nəcəfli vurğulayıb ki, öz davamçılarını yetişdirmək və gənc kadrların hazırlanması işinə töhfə vermək həqiqi elm adamlarına xas xüsusiyyətdir. Rəhim Rəhimov şəxsiyyətinin də ən üstün cəhətlərindən biri Azərbaycanda yüksəkixtisaslı tibbi kadrların və gənc alimlərin hazırlanması sahəsində gördüyü işlərdir. Onun elmi rəhbərliyi ilə 2 elmlər doktoru və 12 fəlsəfə doktoru dissertasiyası müdafiə edilib. Alim onkologiya və rentgenologiyanın problemlərinə həsr edilmiş 200-dən artıq elmi-tədqiqatın, eləcə də monoqrafiyaların və patentlərin müəllifidir. Onlardan bir qismi nüfuzlu xarici jurnallarda nəşr olunub. Bu gün də ölkəmizdə onkoloqlar və rentgenoloqlar akademik Rəhim Rəhimovun tədqiqatlarından mötəbər mənbə kimi istifadə edirlər. Akademikin beynəlxalq konfrans və simpoziumlardakı çıxış və məruzələri Azərbaycan tibb elmini layiqincə təmsil edən dəyərli elmi istiqamətlərdir.

Qeyd olunub ki, tanınmış alim, istedadlı həkim və bacarıqlı elm təşkilatçısı Rəhim Rəhimovun Azərbaycanda tibb elminin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, alim "Şöhrət" ordeni ilə təltif edilib. Səlahiyyətli nümayəndə Naxçıvan Dövlət Universitetində akademikin 100 illiyinə həsr olunmuş konfransın keçirilməsini, ömür yoluna və çoxşaxəli elmi fəaliyyətinə nəzər salınmasını, alimin doğulduğu Ordubad şəhərində adına verilmiş küçədə "Elm parkı"nın salınmasını bu sahədə görülən işlərin davamı kimi dəyərləndirib, akademik Rəhim Rəhimovun xatirəsini dərin ehtiramla yad edib, konfransı yüksək qiymətləndirib, təşkilatçılara və iştirakçılara təşəkkürünü bildirib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev vurğulayıb ki, Azərbaycan tibb elminə mühüm töhfələr vermiş böyük elm adamının nümunəvi həyat yoluna həsr olunmuş konfransın təşkili universitet həyatında əlamətdar hadisədir. Rentgenologiya sahəsində apardığı ixtira və kəşflərlə Azərbaycan tibb elminin inkişafında müstəsna yer tutan Rəhim Rəhimov nümunəvi məktəb formalaşdırıb. Bu gün onun ailə üzvləri və tibb sahəsində təhsil alan minlərlə gənc bu məktəbin davamçılarıdır.

Rektor bildirib ki, 1999-cu ildə ümummilli lider Heydər Əliyevin dəstəyi ilə yaradılan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi bu il yaradılmasının 25 illiyini böyük uğurlarla qeyd edir. Bu günədək minlərlə ixtisaslı kadr yetişdirən fakültənin məzunları nəinki ölkəmizdə, dünyanın bir çox ölkələrində peşəkar həkim kimi fəaliyyətini davam etdirir. Bu gün Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində iki minə yaxın gənc təhsilini davam etdirir ki, onların mindən çoxu əcnəbi tələbələrdir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası isə fakültənin tədris və təcrübə imkanlarını daha da artıracaqdır. Belə ki, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün ayrıca yeni tədris kampusu qurulur. Ərazidə 500 yerlik yeni araşdırma xəstəxanasının layihələndirilməsi aparılır. Həmçinin bu ildən ingilis dilində tibb ixtisasının tədrisinə başlanılıb. Bu gün keçirilən konfransda səsləndirilən fikirlər bu yeni imkanlardan yararlanacaq Tibb fakültəsi tələbələri üçün ayrıca stimul olacaq.



Elbrus İsayev universitetin kollektivi və tədbir iştirakçıları adından konfransın təşkilinə göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib, universitetin İncəsənət fakültəsinin müəllimi, Əməkdar rəssam Cavid İsmayılovun akademik Rəhim Rəhimova həsr etdiyi portreti görkəmli alimin oğlu, tibb elmləri doktoru, professor Çingiz Rəhimova təqdim edib.






Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, 60 ilə yaxın Azərbaycan tibb elminə şərəflə xidmət etmiş alim həm də böyük elm və səhiyyə təşkilatçısıdır. Respublikamızda onkologiyanın inkişafında misilsiz xidmətləri olan alim bu sahədə ilk peşəkar mütəxəssislərin hazırlanması və onkoloji sahənin maddi-texniki bazasının formalaşması istiqamətində əvəzsiz işlər görüb. Naxçıvanda, xüsusən də Naxçıvan Dövlət Universitetində belə bir konfransın keçirilməsi görkəmli elm xadimi, akademik Rəhim Rəhimovun nümunəsində yeni nəsil həkimlər, alimlər, elm adamlarının yetişdirilməsinə açılan bir pəncərədir.

Görkəmli şəxsiyyətlə bağlı xatirələrini dilə gətirən İsa Həbibbəyli gənclərə Rəhim Rəhimov ömrü kimi nümunəvi həyat yolu arzulayıb.

Konfransda AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova "Akademik Rəhim Rəhimovun elmi-nəzəri və elmi-təşkilati fəaliyyəti" və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent İlhamə Mustafayeva "Naxçıvan məktəbinin yetişdirdiyi tibb xadimləri və davamçıları" mövzularında məruzə ediblər.

Sonra Milli Onkologiya Mərkəzinin baş həkimi, tibb üzrə fəlsəfə doktoru Azad Kərimli, Azərbaycan Tibb Universitetinin kafedra müdiri, AMEA-nın müxbir üzvü Sudeif İmamverdiyev və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi, akademik Asəf Hacıyevin çıxışları dinlənilib, akademik Rəhim Rəhimovun zəngin həyat yolundan bəhs edən film nümayiş etdirilib.

Konfransda Naxçıvan Dövlət Universitetinin qabaqcıl tələbələrindən Əli Ələkbərliyə "Rəhim Rəhimov adına Təqaüd" təqdim olunub.

Akademik Rəhim Rəhimovun oğlu, Azərbaycan Tibb Universitetinin kafedra müdiri, tibb elmləri doktoru, professor Çingiz Rəhimov ailə üzvləri adından konfransın təşkilinə görə minnətdarlıq edib.

"Tusi" Xeyriyyə Cəmiyyətinin təsis etdiyi "Akademik Rəhim Rəhimov adına Diplom" Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevə təqdim olunub.

Sonda xatirə fotosu çəkdirilib.

**Səadət ƏLİYEVA**
***NDU-nun Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# “Elmi inkişaf: uğurlar və çağırışlar” gənc tədqiqatçıların I respublika elmi konfransı





*Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunan konfransda universitetin Elm və İnnovasiyalar üzrə prorektoru Elsevər Əsədov konfransın gənc tədqiqatçılar üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb, eyni zamanda ali təhsil müəssisəsində gənc tədqiqatçıların inkişafı üçün yaradılan şəraitdən danışıb.*

Qeyd edilib ki, ixtisaslı kadrların yetişməsində nəzəri biliklərin vacibliyi ilə yanaşı, aparılan təcrübələr, həyata keçirilən elmi-tədqiqat işləri əsas diqqət mərkəzində olan məsələlərdəndir.

Universitetin Magistratura və doktorantura mərkəzinin direktoru Çapay Quliyev “Elmi inkişaf: uğurlar və çağırışlar” mövzusunda çıxış edib. Qeyd edib ki, təhsil sahəsində aparılan islahatlar yeni düşüncəli və geniş dünyagörüşlü gənclərin hazırlanması məqsədlərinə yönəlib. Təhsilalanların tədqiqat aparması, yeni informasiya texnologiyalarından istifadə etməsi və xarici dilləri öyrənməsi üçün ali təhsil müəssisəsində geniş imkanlar yaradılıb.

Sonra Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalovun “Müasir elmi çağırışlar və perspektivlər”, Pedaqogika və psixologiya kafedrasının müdiri Taleh Xəlilovun “Elmi tədqiqatların aprobasiyasında beynəlxalq platformaların yaratdığı imkanlar” mövzularında çıxışları dinlənilib.

Sonda Toksikoloji kimya ixtisası üzrə magistr Zəhra Mahmudova, Azərbaycan dili ixtisası üzrə magistr Səkinə Məmmədzadə və Naxçıvan Müəllimlər İnstitutunun magistrantı Ülkər Məmmədova apardıqları tədqiqat işlərinə dair çıxışlar ediblər.

Qeyd edək ki, konfrans 6 ənənəvi, 1 onlayn olmaqla 7 bölmədə öz işini davam etdirib.

**Məmmədbağır DÜNYAMALIYEV**

# Naxçıvan Dövlət Universiteti ilə Finlandiyanın Helsinki Universiteti arasında əməkdaşlıq əlaqələri qurulur





NDU-nun rektoru Elbrus İsayev və strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli Finlandiyada işgüzar səfərdə olublar. Səfər zamanı Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədovun dəstəyi ilə Helsinki Universitetində görüşlər keçirilib.

Görüşlərdə iki universitet arasında qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib, süni intellekt, proqramlaşdırma, sənaye əlaqələrinin təkmilləşdirilməsi, birgə tədqiqatların aparılması, akademik heyətin mübadiləsi, onlayn təlimlərin keçirilməsi sahəsində ilkin razılıqlar əldə olunub. Süni intellekt və proqramlaşdırma üzrə əldə edilən razılığa əsasən bu sahədə IBM təlimlərində iştirak edən komanda üzvlərinin təcrübələrindən proqram mühəndisliyi institutunun qurulmasında istifadə etmək nəzərdə tutulub.

Nəzərinizə çatdıraq ki, dünya universitetləri sıralamasında 70-ci yerdə qərarlaşan, Finlandiyanın ən öndə gedən ali təhsil müəssisəsi olan Helsinki Universiteti 1640-cı ildə yaradılıb. Helsinki Universiteti Avropanın aparıcı tədqiqat universitetləri ilə əməkdaşlıq edən Avropa Tədqiqat Universitetləri Liqasının üzvüdür. Güclü beynəlxalq əlaqələrə malik Helsinki Universitetinin müxtəlif qitələrdəki ali təhsil müəssisələri ilə 80 əməkdaşlıq müqaviləsi var.

Qeyd edək ki, səfər, Naxçıvan Dövlət Universiteti ilə Helsinki Universiteti arasında strateji əməkdaşlığın yaradılması və zəruri olan əməkdaşlıq sahələrinin müəyyən edilməsində xüsusi rol oynayacaq. İki universitet arasındakı yaradılacaq iş birliyi, bilik və təcrübə mübadiləsi tədqiqat sahəsində inkişafı dəstəkləyəcək, hər iki universitetin təhsil sisteminə yeniliklər qazandıracaq.

**Pərviz HACILI**

*Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli Finlandiyanın ən böyük tətbiqi elmlər universiteti olan Metropolia Universitetində oldular.*

# NDU və Metropolia Universiteti arasında tədqiqat qrupu formalaşdırılacaq





Universitetin Prezidenti, baş icraçı direktor Riitta Konkola ilə keçirilən görüşdə ortaq konfransların keçirilməsi, tələbə-müəllim mobilliyi, tibb sahəsində birgə tədqiqat mərkəzlərinin yaradılması, tədqiqat qrupunun formalaşdırılması üzrə ilkin razılıq əldə olunub. Eyni zamanda görüşdə Metropolia Universitetinin virtual tibbi laboratoriyalarında Naxçıvan Dövlət Universiteti ilə birlikdə ortaq tədqiqatların aparılması da nəzərdə tutulub. Müzakirələr zamanı bakalavriat və magistratura pilləsində təhsil alan tələbələrin mobilliyi üzrə razılığa gəlinib. Belə ki, qısamüddətli ikili müqavilə əsasında tələbələr mobillik proqramından yararlana biləcəklər.

Sonda rektor Elbrus İsayev Riitta Konkolaya əməkdaşlıq əlaqələrinin dinamik şəkildə inkişaf edəcəyini bildirərək xoş qarşılanmaya görə təşəkkür edib.

Məlumat üçün onu da qeyd edək ki, Finlandiyanın ən böyük tətbiqi elmlər universiteti olan Metropolia Tətbiqi Elmlər Universiteti Biznes, Texnologiya, Mədəniyyət, Səhiyyə və Sosial Xidmətlər sahələrində mütəxəssislər yetişdirir.

**Məmmədbağır Dünyamalıyev**

# NDU ilə ADU arasında imzalanan əməkdaşlıq müqaviləsi öz bəhrəsini göstərməkdədir



*Naxçıvan Dövlət Universiteti (NDU) ilə Azərbaycan Dillər Universiteti (ADU) arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən ADU-nun əməkdaşları NDU-nun Xarici dillər fakültəsində təlim keçiblər.*

Təlimdən əvvəl Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan Dillər Universitetinin nümayəndə heyəti ilə görüşüb. Görüşdə iki ali təhsil müəssisəsi arasında yeni əməkdaşlıq imkanları, seminarlar, ustad dərsləri və təlimlərin keçirilməsi, birgə layihələrin hazırlanması haqqında müzakirələr aparılıb.

İki gün davam edən təlimin ilk günü ADU-nun Tərcümə fakültəsinin dekanı, filologiya elmləri doktoru Bənövşə Məmmədova “Azərbaycan Dillər Universitetində bakalavr pilləsində tərcüməçi hazırlığına dair”, ADU-nun German dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının baş müəllimi Yusif Allahverdiyev “Kiçik həcmli mətnlərin Alman dilinə tərcüməsi”, həmin kafedranın dosenti, filologiya üzrə fəlsəfə doktoru Fiala Abdullayeva isə “Naxçıvanlı ziyalıların əsərlərinin ingiliscəyə tərcüməsi” mövzularında təlim keçiblər.

Təlimin sonuncu günü ADU-nun German dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının baş müəllimi Güllü Bayramova və Roman dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının baş müəllimi Dilşad Pənahovanın “Yazılı tərcümə fənninin tədrisinə verilən tələblər”, “İlkin tərcümə vərdişləri”, “Kompüter tərcümə proqramları”, “Audiovizual tərcüməni necə yerinə yetirməli” mövzularında çıxışları dinlənilib.

# “Naxçıvanda məktəb və universitetlər üçün Almaniya günü” keçirilib





*Tələbə və elm işçilərin beynəlxalq mübadiləsi ilə məşğul olan və bu sahədə dünyanın ən böyük təqaüd təşkilatı sayılan Alman Akademik Mübadilə Xidmətinin, Alman Dili Tədrisi Mərkəzi Azərbaycanın və Höte Universitetinin əməkdaşları Naxçıvan Dövlət Universitetində təlimlər keçiblər.*

Bu münasibətlə keçirilən tədbirdə ali təhsil müəssisəsinin beynəlxalq əlaqələrindən, əməkdaşlıq münasibətlərindən danışan NDU-nun strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli qonaqları universitetdə görməkdən məmnunluğunu ifadə edib, keçiriləcək təlimlərin səmərəli olacağına əminliyini ifadə edib.

Sonra DAAD-ın ADU-dakı lektoru Lisa Brant və AzTU–dakı lektoru Klaudio Kasperl təqdimatları zamanı bildiriblər ki, Alman Akademik Mübadilə Xidmətinin əsas fəaliyyəti tələbələrin və elmi işçilərin mübadiləsi ilə Almaniyanın xarici ölkələrlə akademik münasibətlərinin dəstəklənməsidir. Xidmətin Bakı Məlumat Mərkəzi regionlarda yerləşən ali təhsil müəssisələri ilə əməkdaşlıq etməkdə maraqlıdır. Əvvəlki layihələrdə təkcə alman dili ixtisaslarında oxuyan tələbələrə üstünlük verilirdisə, bu gün artıq layihə çərçivəsində ingilis dilli təhsil proqramlarına da yer verilir. İl ərzində tələbələr və müəllimlər üçün müxtəlif mövzularda seminarlar və yay məktəbləri təşkil edən Bakı Məlumat Mərkəzi tərəfindən təqaüdlü təhsil proqramları da irəli sürülür.

Daha sonra Höte Universitetinin əməkdaşı Florian Tack, Alman Dili Tədrisi Mərkəzi Azərbaycanın rəhbəri Zəhra Alıyeva və mərkəzin əməkdaşları Aysel Əmiraslanova, Arzu Hüseynova və Günel Əliyeva tələbə və müəllimlərə təlimlər keçiblər. Müəllimlərlə Almaniyada təhsil, mütəxəssis hazırlığı kimi mövzular müzakirə edilib.





# Dünya şöhrətli alim Xəlil Kələntər elektron resurslarını NDU-nun Elmi Kitabxanasına təqdim edib

*Bu məqsədlə keçirilən tədbirdə universitetin rektoru Elbrus İsayev tədqiqat universitetinə çevrilmək istiqamətində geniş viziona malik olan Naxçıvan Dövlət Universitetində son illərdə mühüm elmi yeniliklər və elmi tədbirlərin silsilə xarakter aldığını qeyd edib. Rektor alim Xəlil Kələntərin 2023-cü ildən ali təhsil ocağında da dərslər tədris etməsini və universitet əməkdaşı kimi beynəlxalq elmi jurnallarda məqalələrlə çıxış etməsini təhsil müəssisəsinin inkişafına mühüm töhfə kimi dəyərləndirib.*

Rektor bildirib ki, əvvəlki və yeni nəsil monitorların yaradılmasında əvəzsiz xidmətləri olan, elektronika sahəsinə aid onlarla kitabın, çoxsaylı elmi məqalələrin müəllifi olan Xəlil Kələntər həm də Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvüdür. Rektor nüfuzlu alimin 40 ilə yaxındır ki, Yaponiyada yaşamasına və fəaliyyət göstərməsinə baxmayaraq, öz vətəni Azərbaycanla çox sıx əlaqə saxladığını qeyd edib.

Rektor vurğulayıb ki, alimin təqdim etdiyi elektron resurslar NDU Elmi Kitabxanasının fondunu zənginləşdirir və tədqiqat, təhsil və informasiya mənbəyi kimi mühüm rol oynayır. Kitabxananın fondunun genişləndirilməsi, texnoloji təchizatının və istifadəçi təcrübəsinin yaxşılaşdırılması gələcək inkişaf üçün vacibdir.

Rektor Xəlil Kələntərə təqdim etdiyi elektron resurslara görə universitet kollektivi adından minnətdarlığını bildirib.

Tədbirdə Fizika-riyaziyyat fakültəsinin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru Məftun İsmayılov, Ümumi və nəzəri fizika kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru Billurə Hacıyeva və digərləri çıxış ediblər.

Çıxışlarda bildirilib ki, dünya şöhrətli alim Xəlil Kələntər tərəfindən kitabxanaya təqdim edilən elektron materiallar müxtəlif mövzularda dəyərli mənbələri əks etdirir və elmi araşdırmalar üçün əhəmiyyətli bir resurs təşkil edir.

**Səadət ƏLİYEVA**

# Naxçıvan Dövlət Universiteti ilə AMEA-nın Tarix və Etnologiya İnstitutu arasında birgə əməkdaşlıq məsələləri müzakirə olunub

**Bu məqsədlə ali təhsil ocağında keçirilən onlayn görüşdə Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun baş direktoru, professor Kərim Şükürov çıxış edərək rəhbərlik etdiyi institutun tarixi, fəaliyyət istiqamətləri, strukturu barədə məlumat verib. Professor əsas elmi istiqamət haqqında danışaraq ali təhsil ocağı ilə qurulacaq elmi əməkdaşlıq fəaliyyəti barədə mühüm məqamlara toxunub.**





Universitetin rektoru Elbrus İsayev təhsilin bütün səviyyələrində institutun alimlərinə, araşdırmaçılarına ciddi ehtiyacın olduğunu bildirib. Rektor vurğulayıb ki, Naxçıvanın Azərbaycan tarixşünaslığının mühüm mərhələsini tutduğunu nəzərə alsaq universitetin də bu istiqamətdə aparacağı elmi-tədqiqatların əhəmiyyətinə diqqəti çəkmək lazımdır.

Tədbirdə gələcəkdə institut arasında birgə elmi tədqiqatların aparılması, elmi jurnalların nəşr olunması, ali təhsil ocağında institutun professorları tərəfindən modul tipli dərslərin keçirilməsi, magistr və doktorantların hazırlanmasında institutun imkanlarından istifadə olunması, birgə konfranslar, dəyirmi masalar, diskussiyalar və digər elmi tədbirlərdə iştirak məsələləri müzakirə edilib. Görüşdə həmçinin diqqətə çatdırılıb ki, ali təhsil ocağının Elmi kitabxanasında mövcud olan proqram təminatı əsasında institutun kitabxanasının elektron bazasından istifadə edərək, elmi ədəbiyyatlara əlçatanlılığı da təmin etmək olar.

Sonra İnstitutun şöbə müdirləri də birgə əməkdaşlıq barədə öz fikirlərini çatdırıb, hər cür dəstəyə hazır olduqlarını ifadə ediblər.

Elbrus İsayev sonda onu da əlavə edib ki, qurulacaq elmi əməkdaşlıq üçün ali təhsil ocağında birgə fəaliyyət göstərəcək kafedra və bu istiqamətdə məsul olan şəxslər müəyyənləşdiriləcək, aparılan müzakirələr qısa zamanda həyata keçiriləcək.

**Səadət Əliyeva**
**NDU-nun Media və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri**

# Əməkdaşlarımız Niderland Krallığının Wittenborg Tətbiqi Elmlər Universitetində olublar






15-19 aprel tarixlərində NDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ruqiyyə Kərimova, Strateji inkişaf və keyfiyyət təminatı bölməsi üzrə mütəxəssislər Ayşən Vəliyeva və Lətif Sadıqov Erasmus+ proqramı çərçivəsində icra olunan, Avropa Komissiyası tərəfindən maliyyələşdirilən "Azərbaycan və Rusiya ali təhsil müəssisələrində təlim, tədris və qiymətləndirmə prosesinin daxili keyfiyyət təminatının təkmilləşdirilməsi" (IQAinAR) layihəsinin növbəti təlimlərinə qatılıblar.

Niderland krallığının Wittenborg Tətbiqi Elmlər Universitetinin koordinatoru olduğu layihənin əsas məqsədi ali təhsil müəssisələrində daxili keyfiyyət təminatının və eləcə də, təhsildə təlim-tədris və qiymətləndirmə proseslərinin təkmilləşdirilməsindən ibarətdir.

Universitetdə keçirilən görüşdə layihənin yerli tərəfdaşları olaraq Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, xarici tərəfdaşları olaraq İspanyanın Mursiya Katolik Universiteti, Niderland Krallığının "456 International B.V" təşkilatı və Wittenborg Tətbiqi Elmlər Universitetindən olan nümayəndələr iştirak ediblər.

# Əməkdaşlarımız "DIRNA" layihəsi çərçivəsində Finlandiyada keçirilən təlimlərə qatılıblar



NDU-nun rektor müşaviri Rəcəb Cəfərli və Elmi Kitabxananın direktoru Xumar Məmmədova Avropa İttifaqının dəstəyi ilə reallaşdırılan Beynəlxalq əməkdaşlıq layihələri çərçivəsində Erasmus+ proqramının "Azərbaycanda institusional repozitoriyalar (elektron arxivlər) şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) layihəsi ilə Finlandiyanın Jyvaskala Universitetində növbəti təlimlərdə iştirak ediblər.

# Naxçıvan Dövlət Universitetində "Açıq qapı" günü keçirilib



*NDU-da Babək rayon məktəbliləri üçün "Açıq qapı" günü keçirilib. Bu münasibətlə keçirilən tədbirdə universitetin tanıtım videoçarxına baxış olub.*

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev ali təhsil müəssisəsinin maddi-texniki bazası, müasir tədris üsulları haqda danışıb. Prorektor ali təhsil ocağının qoşulduğu layihələr, tərəfdaş olduğu müqavilələr barədə məktəblilərə ətraflı məlumat verib.

Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov şagirdlərin universiteti tanıması istiqamətində keçirilən "Açıq qapı" gününün may ayının sonuna qədər davam edəcəyini bildirib.

Sonra şagirdlər fakültələrdə yaradılan şəraitlə tanış olublar.

# Naxçıvan Dövlət Unversiteti və Türkiyənin Mardin Artuklu Universitetinin birgə təşkilatçılığı ilə konsert keçirilib



*Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş konsert proqramında NDU-nun Kamera Orkestrinin müşayiəti ilə Mardin Artuklu Universitetinin müəllimləri Eldar İbrahimoğlu və Tuba Akkayanın ifasında səslənən klassik musiqilər dinləyicilərdə xoş ovqat yaradıb.*

Azərbaycan Respublikasının Xalq artisti, professor Çingiz Axundovun dirijorluq etdiyi konsertdə dünyaca məşhur dahi bəstəkarlar Motsart, İohann Sebastyan Bax, Manuel Poncein əsərləri səsləndirilib. Konsertin bədii rəhbəri Azərbaycan Respublikasının əməkdar artisti, dosent Mübariz Əsgərov olub.

Konsertin sonunda universitetin rektoru Elbrus İsayev bu gün keçirilən konserti Mardin Artuklu Universiteti ilə imzalanan əməkdaşlıq protokolunun əməli nəticəsi kimi qiymətləndirib. Qardaş Türkiyə universiteti ilə əməkdaşlığın daha da səmərəli olacağına əminliyini ifadə edən rektor konsertin təşkilində əməyi olanlara təşəkkürünü bildirib.

Mardin Artuklu Universiteti Dövlət Konservatoriyasının dekan müavini Mustafa Diriöz göstərilən qonaqpərvərliyə görə Elbrus İsayevə minnətdarlığını bildirib. Mustafa Diriöz vurğulayıb ki, Naxçıvan Dövlət Universitetinin incəsənət sahəsindəki çoxillik təcrübəsinin öyrənilməsi Mardin Artuklu Universitetinin bu sahədəki inkişafı üçün xüsusilə önəmlidir.

Sonda Elbrus İsayev qonaqlara rəsm əsəri hədiyyə edib.

# Bədii yaradıcılıq müsabiqə festivalı





*Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş bədii yaradıcılıq müsabiqə festivalı keçirilib. Ulu öndər Heydər Əliyev və Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən festival milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörməti inkişaf etdirmək məqsədi daşıyır.

Bu məqsədlə Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qonaqları salamlayıb ədəbiyyat və incəsənətin birgə vəhdətindən ərsəyə gələn tədbiri yüksək qiymətləndirib. Qeyd edilib ki, İncəsənət fakültəsindən fərqli olaraq bugünkü tədbirdə digər ixtisaslarda təhsil alan tələbələr iştirak edirlər. Prorektor bədii yaradıcılıqların qiymətləndirilməsi baxımından tədbirin xüsusi əhəmiyyətə malik olduğunu bildirib.

Tədbirdə onlarla istedadlı tələbə musiqi, bədii qiraət və rəqqaslıq üzrə öz bacarıqlarını nümayiş etdiriblər. İstedadlı tələbələrin müəyyən edilməsi münsiflər heyətinin üzvləri Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Azərbaycan Respublikasının Xalq artisti Təranə Muradova, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimləri Baba Vəziroğlu, Hafiz Quliyev və Azərbaycan Milli Konservatoriyasının müəllimi Arslan Növrəsli tərəfindən həyata keçirilib.

Müsabiqənin sonunda münsiflər heyəti öz təklif və tövsiyyələrini verdikdən sonra tələbələrə uğurlar arzulayıblar. Festival qaliblərinin yekun konserti may ayında keçiriləcək.

Sonra universitetin Elmi kitabxanasında Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Baba Vəziroğlu ilə görüş olub. Görüşdə universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev nasir, şair, tərcüməçi, kinodramaturq 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Baba Vəziroğlu haqda danışıb.

Universitetin İncəsənət fakültəsində "Aktyor sənəti", "Solo oxuma" ixtisaslarında təhsil alan tələbələr və "Tələbə teatr studiyası"nın üzvləri ilə görüşən Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, rejissor Hafiz Quliyev Teatr, Operetta sənəti, xarici ölkələrdə azərbaycan operasının səhnəyə qoyulması haqqında iştirakçılara məlumat verib.

Azərbaycan Respublikasının xalq artisti Təranə Muradova və Arslan Növrəsli NDU Musiqi Kollecinin müvafiq ixtisaslarında təhsil alan tələbələrə ustad dərsi keçiblər. Tədbirdə tələbələrin musiqi və rəqs bacarıqları qiymətləndirilib.

**Pərviz HACILI**

# Tələbələrimizin uğurlarına birgə sevinirik!

## Ölkədə keçirilən dövlət qulluğu imtahanlarında tələbələri ən yüksək nəticə əldə etmiş 3 universitetdən biri *Naxçıvan Dövlət Universiteti*

***Dövlət qulluğu imtahanlarında yüksək nəticə əldə edərək sertifikat alan namizədlərdən Naxçıvan Dövlət Universitetinin tələbələri Azərbaycan universitetləri arasında ilk üçlükdə qərarlaşıblar.***

NDU-nun Media və ictimaiyyətlə əlaqələr bölməsi Dövlət İmtahan Mərkəzinə (DİM) istinadən xəbər verir ki, 2023-cü il ərzində DİM dövlət qulluğunun inzibati vəzifələrinin tutulması məqsədilə hər biri 6 imtahan olmaqla A və B növləri üzrə ümumilikdə 12 test imtahanı keçirib. İmtahanlarda iştirak edən 16200 namizəddən 4709 nəfəri imtahanlarda uğurlu nəticə əldə edib.

Test imtahanlarında uğur əldə edərək sertifikat alan namizədlərin təhsil aldığı ali məktəblər üzrə nəticələrə əsasən, Naxçıvan Dövlət Universiteti, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri ilk üç yeri tutublar.




***NDU-nun Memarlıq və mühəndislik fakültəsinin tələbələri IBM Skills Network platformasındakı kurslara qoşularaq beynəlxalq sertifikatlar qazanıblar.***

## Tələbələrimiz IBM Skills Network platformasından beynəlxalq sertifikat əldə ediblər







Tələbələr “Kibertəhlükəsizlik”, “Süni intellekt”, “Veb proqramlaşdırma”, “Verilənlər bazası”, “Data science”, “İnformasiya texnologiyaları” kurslarında iştirak ediblər.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti ilə IBM arasında bağlanan müqaviləyə əsasən NDU-nun tələbələri bu platformadakı kurslardan ödənişsiz yararlanırlar.

**Səadət ƏLİYEVA**

## Tələbəmiz Almaniyada keçirilən beynəlxalq layihədə iştirak edib



NDU-nun Beynəlxalq Münasibətlər və Hüquq fakültəsinin Fəlsəfə ixtisası üzrə tələbəsi Cəmil Xudayarov Avropa İttifaqı Proqramı “Erasmus Plus Gənclik Mobilliyi” çərçivəsində 3-10 aprel 2024-cü il tarixlərində Almaniyada keçirilən “Mədəniyyət Elçiləri Hərəkatı” (“Culture Ambassadors in Action”) layihəsində iştirak edib.

Layihədə Azərbaycanla yanaşı İtaliya, Belçika, Bolqarıstan, Macarıstan, İordaniya, Türkiyə və İspaniyadan olan gənclər beynəlxalq münasibətlərdə fərqli mədəniyyətlərin rolu, digər mədəniyyətlərin tanınması və öyrənilməsində çatışmazlıqlar, müxtəlif millət və köklərdən gələn gənclərin birlikdə ictimai fərqindəlik yaratması barədə mövzuları müzakirə ediblər. Mövzu ilə bağlı interaktiv oyunlar, təlimlər və qrup işləri həyata keçirilib.

Layihənin əsas məqsədi gəncləri mədəniyyətin beynəlxalq münasibətlərdə oynadığı rol haqqında maarifləndirmək, mədəniyyətlərarası anlaşma və xoş niyyəti təşviq etməkdir.

## “Qərbi Azərbaycana qayıdış” olimpiadası keçirilib

*Arelin 27-də Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin IX- X sinif şagirdləri arasında “Qərbi Azərbaycana qayıdış” olimpiadasının rayon (şəhər) mərhələsi keçirilib.*



8 mərkəzdə təşkil olunan olimpiadada 800-dən artıq şagird iştirak edib və məktəblilərə qapalı test formatında 30 sual təqdim edilib, sualların cavablandırılması üçün 70 dəqiqə vaxt ayrılıb.

Qeyd edək ki, bu mərhələnin nəticələri əsasında olimpiadanın regional mərhələsində iştirak edəcək şagirdlər müəyyən olunacaq.

Olimpiada Elm və Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Təhsil İnstitutu, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı ilə həyata keçirilir.

Olimpiadanın təşkilində məqsəd şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etməkdir.

## Startap komandalarımız Estoniyada keçiriləcək dünya çempionatında iştirak etməyə haqq qazanıblar






***Naxçıvan Dövlət Universitetinin startap komandaları “Robotex Türkiyə” Antalya çempionatında yüksək nəticə əldə ediblər.***

NDU-nun 5 komandası 19-21 aprel tarixlərində keçirilən "Robotex Türkiyə" Antalya çempionatında iştirak ediblər. 9 ölkədən komandaların qatıldığı çempionatda komandalarımız “Proqramlaşdırma”, “Yaşıl sahibkarlıq ”, “Tibb elmləri” üzrə startap kateqoriyalarında mübarizə aparıblar.

Çempionatın nəticələrinə əsasən NDU-nun tələbələri - Sərdar Ağayev “Tibb elmləri” kateqoriyası üzrə I, Elsun Cəfərov “Proqramlaşdırma” kateqoriyası üzrə II yerin sahibi olub. Ümüd Nəsibov, Zahir Axundov və Abdulla Kərimli isə “Jüri özəl mükafatı”na layiq görülüblər.

Nəzərinizə çatdıraq ki, yarışmada qalib gələn komandalar 2024-cü ilin dekabr ayında Estoniyada keçiriləcək “Robotex International” dünya çempionatında mübarizə aparacaqlar.

Məlumat üçün onu da bildirək ki, Naxçıvan Dövlət Universiteti Robotexin Azərbaycanda rəsmi tərəfdaşıdır.

## Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının fəallarının layihələri 17000 manat məbləğində qrant qazanıb

“İdeyanı Reallaşdır 2023” Gənclərin Fərdi layihələr üzrə Qrant Müsabiqəsinin NƏTİCƏLƏRİ

| S.n | Adı, soyadı, ata adı | Layihənin adı | Ayrılan məbləğ (AZN) |
|---|---|---|---|
| 1 | Qasımov Əziz Kamal oğlu | Tələbə Gənclər Təşkilatlarının II regional konfransı | 3000 |
| 2 | Məmmədova Salatın Həsən qızı | Qərbi Azərbaycandan olan gənclərin I Naxçıvan Forumu | 3100 |
| 3 | Qənbərli Nilgün Məcid qızı | Gənc mühəndislərin inkişaf proqramı | 2600 |
| 4 | Allahyarova Aytac Rəşad qızı | Milli-mənəvi dəyərlər Forumu | 2900 |
| 5 | İsmayılov Həsən Əli oğlu | “Muxtariyyət-100” mövzusunda Nə? Harada? Nə zaman? intellektual oyunu | 2800 |
| 6 | Məmmədova Xəyalə Kamil qızı | Gənc hüquqşünasların inkişaf proqramı | 2600 |

Azərbaycan Respublikası Gənclər Fondunun gənc nəslin fiziki, intellektual və mənəvi inkişafının təmin edilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, ictimai fəallığının artırılması, eləcə də innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin dəstəklənməsi məqsədilə keçirdiyi “İdeyanı Reallaşdır 2023” Gənclərin Fərdi Layihələri üzrə Qrant Müsabiqəsinin qalibləri müəyyən edilib.

Qalib layihələr arasında Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının fəal üzvləri də var. Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımovun “Tələbə-Gənclər Təşkilatlarının II regional konfransı”, sədr müavini Nilgün Qənbərlinin “Gənc mühəndislərin inkişaf proqramı”, sədr müavini Aytac Allahyarovanın “Milli-mənəvi dəyərlər Forumu” və Tələbə Gənclər Təşkilatının fəalları Salatın Məmmədovanın “Qərbi Azərbaycandan olan gənclərin I Naxçıvan Forumu”, Həsən İsmayılovun “Muxtariyyət-100” mövzusunda Nə? Harada? Nə zaman? intellektual oyunu, Xəyalə Məmmədovanın “Gənc hüquqşünasların inkişaf proqramı” layihələri müsabiqənin qalibi olub.

Qeyd edək ki, Tələbə Gənclər Təşkilatının qeyd edilən 6 layihəsi üzrə Əziz Qasımov 3000, Nilgün Qənbərli 2600, Salatın Məmmədova 3100, Aytac Allahyarova 2900, Həsən İsmayılov 2800, Xəyalə Məmmədovaya isə 2600 manat olmaqla, ümumilikdə, 17000 manat qrant ayrılıb.

**M.DÜNYAMALIYEV**

## “PAŞA Holding”-ə daxil olan “Umico” şirkəti tələbələrlə görüş keçirib





Umico şirkəti Azərbaycanın regionlarında gənc kadrların kəşf edilməsi və iş imkanlarının genişləndirilməsi üzrə layihəyə start verib. Layihənin məqsədi tələbələrin və yeni məzun olmuş şəxslərin iş təcrübəsinin artırılmasıdır.

Bu münasibətlə Umico şirkətinin əməkdaşları 23-24 aprel tarixlərində Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüşlər keçiriblər. Görüşlərdə tələbələrə iş imkanları, karyera yüksəlişləri ilə bağlı məlumat verilib.

Qeyd edək ki, Umico şirkəti 2023-cü ildə ən çox təcrübəsi olmayan gəncləri işə cəlb etdiyinə görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 1-ci yerə layiq görülüb.

# Dünya şöhrətli alim, fədakar ana, qayğıkeş insan – Zərifə xanım Əliyeva

***Elə insanlar var ki, onların həyatı mayaka bənzəyir. Başqaları da belə insanlara oxşamağa çalışır, onları özləri üçün nümunə sayırlar. Dünya şöhrətli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva bu qəbildən olan insanlar sırasında yer alır. Biz onun timsalında Azərbaycan qadınlarının ümumiləşmiş obrazını görürük. Zərifə xanım Əliyevanın portret cizgiləri, mənalı həyatı və fəaliyyəti qadınlarımızın zərifliyini və fədakarlığını təcəssüm etdirir.***




Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 23-cü ilin yazı dövrünün görkəmli dövlət və ictimai-siyasi xadimi, elm fədaisi, böyük şəxsiyyət Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində onilliklər sonra ailənin adını daha da ucalıqlara qaldıracaq, Vətənə layiqli övlad olacaq, xalqına xidməti hər şeydən ümdə biləcək parlaq bir simanın gəlişi ilə yaddaqalan olmuşdu. Atası Əziz Məmmədkərim oğlu Əliyev və anası Leyla Cabbar qızı Abbasova əbədi və əzəli torpağımız olan İrəvan mahalında anadan olmuşlar. Azərbaycanlılara qarşı şüurlu surətdə həyata keçirilən soyqırım siyasəti Əziz Əliyevi 1918-ci ildə Sankt-Peterburqdakı təhsilini yarımçıq qoyub İrəvanda təqiblərə məruz qalan ailəsini Şahtaxtı kəndinə köçürməyə məcbur edir. Məhz burada Zərifə xanım dünyaya göz açır.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi. Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.

Tələbəlik illərində fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və Akademik Zərifə Əliyeva Azərbaycanda peşə oftalmologiyasının əsasını qoyub

Zərifə xanım Əliyeva əqidə adamı idi və heç vaxt çətinliklərin üstünə getməkdən çəkinmirdi. Xarakterindəki prinsipiallıq, həmçinin insanlara qarşı böyük sevgi hissi bəsləməsi onun peşə seçimində özünü göstərdi. O, həyatını çətin, ancaq hər kəsə gərək olan tibb sahəsi ilə bağlamağa qərar verdi. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xariqələr yaratmaq iqtidarındadır.

O, ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Zərifə xanımın başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, onun optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır. Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq, indi də tətbiq edilir və insanlara nur bəxş edir.

Peşə oftalmologiyası Zərifə xanımın ilklərə imza atdığı yeganə elmi istiqamət deyil. O, həm də alternativ təbabət sahəsi olan iridodiaqnostikanı bir elm kimi araşdıran ilk alimlərdən idi. Zərifə xanım “İridodiaqnostikanın əsasları” kimi fundamental elmi əsərin müəlliflərindən biri idi. Həmin dövrdə kitabın nəşri də elə Zərifə xanımın səyi nəticəsində mümkün olmuşdu.

Gözəl müəllim, bacarıqlı təşkilatçı kimi tanınan Zərifə xanım Əliyeva davamçılarının çox olmasını arzulayırdı. Zərifə xanım Əliyevanın həyatında pedaqoji fəaliyyət də mühüm yer tutur. O, heç bir halda özünü sırf elmi axtarışlara qapanan bir alim kimi təsəvvür etmirdi. Zərifə xanım özü gecə-gündüz öyrəndiyi kimi, həm də bildiklərini başqalarına öyrətmək istəyirdi.

Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir.

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun “Herpetik göz xəstəliyi”, “Ağır virus konyunktivitləri” əsərləri bu qəbildəndir. Görkəmli alimin qələmə aldığı “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İridodiaqnostikanın əsasları” kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların bir şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın “Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti” mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı. Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndərimiz deyirdi: ***“Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın”.***

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə xanım Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Ülvi keyfiyyətlərə malik olan akademik Zərifə xanım Əliyeva öz elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə xüsusi yer vermişdir. O, bu mövzuya dair baxışlarını oftalmoloji ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmış “Həkimin yüksək vəzifəsi” və “Oftalmologiyanın aktual problemləri” monoqrafiyalarında ətraflı işıqlandırmışdır. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsərində daha ətraflı şəkildə əks olunmuşdur. Zərifə xanım dəfələrlə deyirdi ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır və bəzən dava-dərmandan da güclü təsir göstərir. Zərifə xanım həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Alim həkim-xəstə münasibətlərinə toxunaraq, insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş, “həkim xəstənin ən doğma adamıdır” demişdir. Zərifə xanımın tibbi etika və deontologiyaya dair məqalə və əsərləri ilə yaxından tanış olduqda, onun bu sahəyə dair işlərinin daha geniş miqyasda olduğu və təkcə tibbdə deyil, bütövlükdə cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edildiyi məlum olur.

Zərifə xanımı fərqləndirən cəhətlərdən biri də bu idi ki, o, cəmiyyətdə daim fəal mövqe tutmağa çalışır və ictimai işlərə qoşulurdu. Səmərəli ictimai fəaliyyət üçün xüsusi istedad tələb olunur. Tanrı bu müdrik xanıma belə bir istedadı da bəxş etmişdi. Dövrünün ictimai həyatında yaxından iştirak edən akademik, Əməkdar elm xadimi Zərifə Əliyeva keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, SSRİ və Azərbaycan Sülhü Müdafiə Komitəsinin rəhbər orqanlarının, respublika “Bilik” cəmiyyəti İdarə Heyətinin və “Novosti oftalmologii” jurnalının redaksiya heyətinin üzvü kimi ən müxtəlif, məsuliyyətli vəzifələri böyük bacarıq və ləyaqətlə yerinə yetirirdi. 1977-ci ildə professor Zərifə xanım Əliyevanın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilib.Tibb elminə gətirdiyi yeniliklər Zərifə xanım Əliyevaya hələ sağlığında bütün dünyada böyük şöhrət qazandırmışdı.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında tarixi sözlər demişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı “oftalmologiyanın mirvarisi” adlandırırdı. Dünya şöhrətli oftalmoloq akademik A.Nesterov demişdir: “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi.” Akademik N.Puçkovskaya “Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi” deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır.

Bütün bu elmi fəaliyyəti ilə yanaşı dünya şöhrətli alim Zərifə Əliyeva sıradan bir ailənin xanımı deyildi. O, Azərbaycan xalqının ümummilli lideri, respublikamızın o dövrdəki rəhbəri və sonralar keçmiş SSRİ-nin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinədək yüksələn Heydər Əliyevin həyat yoldaşı idi. Onunla unikal şəxsiyyət olan Heydər Əliyevin ulduzunun barışması saf sevgi əsasında baş tutmuşdu. Ulu Öndərin Özü aradan illər ötəndən sonra da Zərifə xanıma olan sonsuz məhəbbətini böyük sevinclə dilə gətirirdi. Heydər Əliyev kimi yüksək vəzifələrdə çalışan şəxsiyyətin ömür-gün yoldaşı olmaq Zərifə xanım üçün yalnız xoşbəxtlik deyildi, həm də böyük məsuliyyət idi.O dövrün gərgin, ziddiyyətlərlə dolu ictimai-siyasi ab-havasını göz önündə canlandırsaq, onun çiyinlərinə necə ağır yük düşdüyünü təsəvvür edə bilərik. Ancaq burada da Zərifə xanımın təmkini, ağılı, ömür-gün yoldaşına böyük sevgisi, ana olmağın məsuliyyətini bütün miqyası ilə dərk etməsi onun ailəsində gözəl ab-havanın yaranmasını şərtləndirirdi. Məhz buna görə də onun ailəsinə xoşbəxtlik hakim kəsilmişdi.

Təəssüf ki, müstəqil Azərbaycanımızın bu gününü görə bilmədi Zərifə xanım. Ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də Moskva şəhərində dünyasını dəyişdi. Azərbaycan adlı bir məmləkəti hər cür təqiblərdən qoruyan, bu torpağa qol-qanad verən, onu bütün dünyaya tanıdan bir insanı tək qoyub getdi. Sarsıldı, həyatı qədər sevdiyi Zərifə xanımı itirdi, onun yoxluğu ilə heç cür barışa bilmədi. Bir azca qəddi də əyildi, amma sınmadı. Yaşadı...

*Ardı 6-cı səhifədə*

Qəlbində olan Azərbaycan sevgisi onu yaşatdı. Çünki O, Azərbaycan üçün lazım idi. Dərin bir uçuruma yuvarlanan Azərbaycanı ancaq o xilas edə bilərdi. Xilas etdi də. Qalan ömrünü odlar yurdunun rifahı naminə fəda etdi. Azərbaycanın inkişafı üçün əlindən gələni əsirgəmədi. Lakin həmişə onun ruhunu yanında hiss etdi, ondan güc-qüvvə aldı. 2003-cü il dekabrın 12-də Zərifə xanımın kədərli baxışlarına bir sevinc bəxş etdi. Enişli-yoxuşlu yollarda birgə addımladığı ömür-gün yoldaşına qovuşdu. Bir-birlərinə qovuşduqları üçün sevindilər. Amma arxada gözü yaşlı milyonlarla insan qaldı...

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident cənab İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: ***"Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".***

Təbii ki, Zərifə Əliyeva və onun ömür-gün yoldaşı Heydər Əliyev bütün valideynlər kimi, öz övladları üçün ən yaxşı olanları arzulayırdılar və həm də bunun üçün gecə-gündüz böyük səy göstərirdilər. Onların bu zəhməti hədər getməyib. İki unikal şəxsiyyətin - Zərifə Əliyeva ilə Heydər Əliyevin ailəsində böyüyüb boya-başa çatan cənab İlham Əliyev 20 ildən artıqdır ki, müstəqil Azərbaycana rəhbərlik edir. O, ötən dövrdə Özünü bacarıqlı, nəyi necə, nə zaman etməyi yaxşı bilən, xalqını sevən və xalqının böyük etimadını qazanan bir Lider kimi təsdiqləyib.

Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyur. Onun rəhbərliyi ilə Azərbaycan möhtəşəm uğurlara imza ataraq dünyanın sayılıb-seçilən ölkəsi səviyyəsinə yüksəlib. Silahlı Qüvvələrimiz 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirərək şanlı qələbə qazandı və ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Bu qələbə xalqımızın tarixində əbədi qalacaq.

***Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır. Unudulmaz alim, qayğıkeş ana olan Zərifə xanım xalqımız tərəfindən ehtiramla yad olunmağa layiqdir.***

**İlhamə MUSTAFAYEVA**
**Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, dosent, tibb üzrə fəlsəfə doktoru**

## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101-ci ildönümü qeyd olunub



***Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin həkim, rezident və tələbələrinin iştirakı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101-cü ildönümü onun adını daşıyan lektoriyada qeyd edilib.***





Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, akademik Zərifə xanım Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf edib, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırıb. Vurğulanıb ki, Zərifə xanım böyük alim olmaqla yanaşı, görkəmli ictimai xadim və parlaq şəxsiyyət kimi də Azərbaycan tarixində xüsusi yer tutur.

Universitetin Ümumi təbabət və klinik fənlər kafedrasının professoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi İsa Abdullayev bildirib ki, Zərifə xanım fundamental oftalmoloji elmi araşdırmaların müəllifi kimi də şöhrət qazanmışdır. Zərifə xanım vərəm, şəkər və qlaukoma xəstəlikləri nəticəsində gözün zədələnmə xüsusiyyətlərini öyrənilməsinə həsr olunmuş tədqiqat əsərləri ilə təbabətin bu ağır sahəsinə yeniliklər gətirib.

Tibb fakültəsinin dekanı İlhamə Mustafayeva qeyd edib ki, görkəmli alim Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsi öyrədib, onlara diqqət və qayğı ilə yanaşıb. Apardığı elmi tədqiqatların sosial əhəmiyyəti, özünün ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilərək Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Universitet xəstəxanasının həkim-oftalmoloqu Aynur Rzayeva vurğulayıb ki, akademik Zərifə xanım Əliyevanın qazandığı elmi uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. İstedadlı alim oftalmologiyanın aktual mövzuları üzrə çoxprofilli tədqiqatlar apararaq dəyərli elmi-tədqiqat əsərləri ərsəyə gətirib.

Tibb fakültəsinin tələbəsi, Zərifə xanım Əliyeva adına təqaüdçü Bəhriyyə Mustafayeva qeyd edib ki, böyük alimin həyatı, Vətəninə, xalqına sədaqəti, elmə xidməti, sahib olduğu insani məziyyətlər biz gənc nəsil üçün əsl örnəkdir.

Sonda akademikin həyat yolundan bəhs edən film nümayiş olunub.

**Səbinə Quliyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

*NDU-nun Tibb fakültəsinin Tibbi Profilaktika ixtisası üzrə VI kurs tələbələrinə Babək "Sirab" ASC-də açıq dərs keçilib.*

## Tibb fakültəsinin tələbələri "Sirab" ASC-də olublar



Tələbələr burada insan orqanizminə təsir edən istehsalat amilləri (səs-küy, nisbi rütubət, hava cərəyanının hərəkət sürəti, işçi havasının temperaturu, vibrasiya və s.), istehsalın texnoloji ardıcıllığı, texnoloji avadanlıqlar, istehsalat nəzarəti, istehsal olunan məhsullara və istehsalatın mikroiqliminə laboratoriya nəzarəti, xammal və hazır məhsul anbarlarında onların saxlanma şəraiti, hazır məhsulların keyfiyyətini təsdiq edən DS, TŞ və gigiyenik sertifikatların mövcudluğu, hazır məhsulları daşıyan nəqliyyat vasitələrinin sanitariya pasportlarının mövcudluğu, işçilərin dövri tibbi müayinələrini təsdiqləyən tibbi elektron sağlamlıq kartlarının mövcudluğu, onların əmək şəraiti, monoton əmək, məcburu iş pozası, müəssisə hesabına işçilərin qidalanması, əməkdaşların mövsümə uyğun xüsusi geyimlərlə təmin olunması kimi sahələrlə tanış olublar.

Tələbələr istehsal prosesi ilə yaxından tanış olub, istehsal sahəsindən zəngin təəssüratla ayrılıblar. Məşğələnin sonunda xatirə fotoları çəkilib və tələbələrə hədiyyələr təqdim edilib.

**Məmmədbağır Dünyamalıyev**
**NDU-nun Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı**

## Tibb fakültəsi EMSA tələbə təşkilatının təqdimatı keçirilib



***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin EMSA tələbə təşkilatının təqdimatı keçirilib.***

Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Dövlət Univeristetinin Tibb Fakültəsində Avropa Tibb Tələbələri Assosiasiyasının təmsilçiliyinin yaradılması, fakültənin Assosiasiyaya həqiqi üzv olaraq qəbul olunması ilə bağlı tədbir keçirilib.

Tədbirdə EMSA-nın strukturu, fəaliyyət planları, pillarlar, EMSA xətti ilə digər Avropa Universitetləri ilə əlaqələr, qazanılan xarici imkanlar, dəyişim proqramları ilə tibbi təcrübə mübadiləleri, yeni yaranan əməkdaşlıqlar və s. haqqında məlumat verilib.

Sonda EMSA ilə bağlı iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

**Pərviz HACILI**

## Hərbi Tibb ixtisasında təhsil alan tələbələrlə görüş





***Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Hərbi Tibb ixtisasının tələbələri ilə görüşüb.***

Görüşdə rektor tələbələrə tövsiyyələrini çatdırıb, onların təkliflərini dinləyib, sualları cavablandırıb.

Tələbələr fakültədə görmək istədikləri yenilikləri diqqətə çatdırıb və bu cür görüşlərin keçirilməsini yüksək qiymətləndiriblər.

Rektor gələcəkdə Tibb fakültəsi ilə yanaşı, digər fakültələrdə də bu cür görüşlərin keçiriləcəyini diqqətə çatdırıb.

**Səadət ƏLİYEVA**

## Dünya dövlətləri davamlı inkişafı və təhlükəsizlik konsepsiyasını Azərbaycan modeli üzərində qurmağa çalışmalıdır

### *4 kəndimiz də Azərbaycan Bayrağına qovuşdu*

Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb. Cənubi Qafqazın dünya siyasi və iqtisadi məkanına inteqrasiya prosesində artıq söz Azərbaycanındır. Azərbaycanın Cənubi Qafqazda söz sahibinə çevrilməsi, ədalətli və qətiyyətli mövqeyi, birmənalı olaraq ölkə Prezidentinin qlobal miqyasda nüfuzlu Lider olmasının nəticəsidir. Bunu son proseslər də bir daha bütün dünyaya bəyan etdi. İstər 5 aprel Brüssel görüşünün təşkilatçılarından olan ABŞ dövlət katibi Blinken, Brüssel görüşünün digər təşkilatçısı Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenlə görüşdən əvvəl Prezidenti İlham Əliyevə zəng edərək üçtərəfli görüşün təfərrüatlarını müzakirə etməsi, istər Yaxın Şərqin və Postsovet ölkələrinin siyasi tarixində son 300 ilə yaxın bir dövrdə görülməmiş bir hadisənin reallığa çevrilməsi- vaxtından əvvəl sülhməramlıların çıxarılması, istərsə də 4 qeyri-anklav kəndin bir güllə atılmadan, qan tökülmədən Azərbaycana qaytarılması Azərbaycanın şanlı tarixi və bu tarixin müəllifi Prezident İlham Əliyevin kifayət qədər artan nüfuzunun və siyasi lider kimi qəbul olunmasının göstəricisidir.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi Komissiyasının 8-ci görüşünün yekunlarına dair açıqlama, 4 qeyri-anklav kəndin qaytarılması, 200 ildən artıq bir dövrdə itirilən Azərbaycan torpaqlarını addım-addım, qarış-qarış toplayan cənab İlham Əliyevin xalqa növbəti hədiyyəsi və ərməğanı oldu.

Qeyri-anklav kəndlərin qaytarılması məsələsini 2020-ci ilin noyabrında üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra Prezident İlham Əliyev qaldırmışdı və bu müddət ərzində mövzu daim gündəlikdə saxlanıldı, bu istiqamətdə ardıcıl iş aparıldı. Bütün tribunalardan ölkəmiz birmənalı şəkildə bəyan və xəbərdarlıq edirdi ki, Ermənistan davamlı sülh istəyirsə, öz gələcəyini düşünürsə, bəzi dövlətlərin köləsi olaraq yaşamaq istəmirsə işğal etdiyi ərazilərdən qeyri-şərtsiz çıxmalıdır, Azərbaycan torpaqlarının bir qarışını belə işğal altında qalmasına imkan verməyəcək. Və belə də oldu, ölkəmizin ermənipərəst dairələrin məkrli niyyətlərinə rəğmən həyata keçirdiyi ardıcıl və düşünülmüş siyasət əlamətdar tarixi günləri yaşamağı bizə nəsib etdi. Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə razılıq əldə olundu. Delimitasiya prosesinin ilkin mərhələsində tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanis Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrimli (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırdılar. Beləliklə, 44 günlük müharibədə qələbə, 2023-cü ilin sentyabrında suverenliyin tam bərpası, rusiyalı sülhməramlıların bölgədən çıxmasından sonra Azərbaycan lideri bu dəfə də bir güllə belə atmadan 4 qeyri-anklav kəndi işğaldan azad etdi. Nəticədə, əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addım oldu. Delitimasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə baş verdi.



Ölkəmizin bu gün Cənubi Qafqaza sülh, sabitlik və davamlı uğurlar bəxş etdiyi bir dövrdə, təəssüf ki, Qərb, xüsusilə, rəsmi Paris bütün imkanları ilə Cənubi Qafqazda sülhə və davamlı inkişafa əngəl törədir. Həmçinin, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur. Qərb isə təşkilatlarından digər dövlətlərə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışır. Çünki, Cənubi Qafqazda sülh mövcud şəraitdə Qərbin siyasi və iqtisadi maraqlarına uyğun gəlmir. Nəticədə ABŞ və Avropa İttifaqı bölgədəki təsir imkanlarını qorumaq, münaqişəni alovlandırmaq üçün bütün gücləri səfərbər edir, propaqanda apararaq Azərbaycanın guya Ermənistana hücum etməyə hazırlaşması, Ermənistan ərazisində hərbi hədəflərin olmasına dair əsassız fikirlər səsləndirir. 19 aprel razılaşması isə Fransa və digər Qərb dövlətlərinin propaqandasını ifşa edərək ABŞ və Aİ-nin bu məsələlərə müdaxiləsinə kökündən zərbə vurdu, Ermənistan və Azərbaycan birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb məsələni özləri həll etdilər. Buna görə də bəzi Qərb dövlətləri və neoimperialist dairələr bütün bu gedişatlara kölgə salmamalı, etiraf etməyi bacarmalı, qəbullanmalıdırlar ki, nə qədər proseslərdən uzaq dayansalar, Cənubi Qafqazda sülh və əmin-amanlıq o qədər tez təmin olunacaq. Qərb birmənalı olaraq anlamalıdır ki, Prezident İlham Əliyevin ədalətli siyasəti Cənubi Qafqazın sülh, sabitlik və əməkdaşlıq adasına çevrilməsini təmin edən yeganə ağıllı seçimdir. Çünki, cənab İlham Əliyev tərəfindən konkret irəli sürülmüş tələblər tarixi siyasi əhəmiyyəti ilə yanaşı, Cənubi Qafqazın yeni konfiqurasiyasını müəyyənləşdirməyə xidmət edir.

Bütün deyilənlərin fonunda belə bir həqiqət də öz təsdiqini tapır ki, güclü və müdrik lideri olan dövlət qarşısında duran bütün məqsədlərə nail ola bilir. Bu baxımdan Vətən müharibəsindən sonrakı bütün proseslərə, ən son 4 qeyri-anklav kəndin qaytarılmasına da nəzər salsaq Prezident İlham Əliyevin siyasi-diplomatik müstəvidə birmənalı olaraq ən önəmli LİDER olduğu bir daha aydın görünür.

Görünən reallıq isə, dünya dövlətləri davamlı inkişafı və təhlükəsizlik konsepsiyasını Azərbaycan modeli üzərində qurmağa çalışmalıdır!

## "COP 29 və Azərbaycan üçün Yaşıl Baxış":

### *Azərbaycan sülh və əməkdaşlıq məkanı kimi*

***Bu gün Azərbaycanın yüksək səviyyəli mötəbər tədbirlərə uğurla ev sahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusilə son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb.***

Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv kimi təmsil olunmur, həm də bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. ADA Universitetində 23 aprel tarixdə keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda ölkə Prezidenti cənab İlham Əliyevin çıxışı dünya dövlətlərinə ölkəmizin nə qədər təhlükəsiz, bölgədə sülh və davamlı inkişafın təminatçısı olduğunu bir daha nümayiş etdirdi. Üçüncü Dünya müharibəsinin izlərinin göründüyü, müxtəlif qütblərdə xaos və anarxiyanın tüğyan etdiyi bir zamanda ölkəmiz sabit, təhlükəsiz bir bölgəyə çevrilib. Təbii ki, bütün bu nailiyyətlərin, uğurların müəllifi siyasi lider cənab İlham Əliyevdir. Onun yaratdığı reallıqlardır.

Bu gün dövlətimizin başçısı bölgəmizdə düşmənçiliyə son qoyulması, qarşılıqlı etimada əsaslanan davamlı sülhə, dincliyə, əmin-amanlığa nail olunması uğrunda təşəbbüslər irəli sürür. Bu təşəbbüslər isə Cənubi Qafqazda sabitlik və inkişaf üçün zəruri şəraitin yaradılmasına xidmət edir. Bu gün təkcə regional deyil, qlobal miqyaslı məsələlərdə də Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın mövqeyi və rəyi mütləq nəzərə alınır. Eyni zamanda da ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi, sivilizasiyalararası dialoqların baş tutduğu vacib platformaya çevrilməsi onun dünyada hansı yüksək mövqeni tutduğunu sərgiləyir. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi deyilənlərin real təsdiqidir. Bu Azərbaycanın qüdrətini bir daha dünyaya göstərir və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirir.

ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda ölkəmizin uğurlarının səbəblərindən danışan dövlətimizin başçısı qeyd etdi: ***"Biz heç vaxt Azərbaycan üçün potensial təhlükə yarada biləcək heç bir işə qoşulmamışıq. Biz hər zaman İran, Rusiya, Gürcüstan və Avropa, həmcinin Turkiyədə qardaşlarımız ilə munasibətlərimizdə ədalətli olmuşuq. Uğurumuzun səbəbi bundadır… Hesab edirəm ki, əsas çıxış yolu və üsul düzgün və səmimi olmaqdır. Biz qonşularla yaxşı və bəzi hallarda əla munasibətləri qura bilmişik"***. Sülhü, ədaləti, beynəlxalq hüququ hər zaman əsas tutan dövlətimizin başçısı ölkəmizin multikultural dəyərləri də hər zaman töhfə verdiyini dilə gətirdi: ***"Çünki Azərbaycan cəmiyyəti əsrlər boyu hər iki sivilizasiyanın – Avropa və İslam sivilizasiyalarının dəyərlərini böyük dərəcədə qəbul edib"***.

Bu gün regionda dayanıqlı sülhün və təhlükəsizliyin yaradılması üçün sülh müqaviləsinin toxunan dövlətimizin başçısı bu məsələnin həllinə yaxın olduğumuzu qeyd etdi: ***"Biz işğal zamanı buna heç vaxt yaxın olmamışıq. Həmin vaxt biz baza prinsipləri üzərində belə razılığa gələ bilmirdik. İndi bizim sülh sazişinin necə olması ilə bağlı ümumi anlayışımız var. Biz, sadəcə, təfərruatları işləməliyik. Lakin, əlbəttə, hər iki tərəf vaxt lazımdır"***.

"COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum dünya dövlətlərinə bir daha nümayiş etdirdi ki, Azərbaycanın gücü bütün komponentlərin paralel və balanslı inkişafında, daxili sabitliyin təminatında, ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsində, onu regional güc mərkəzinə çevirilməsindədir.

**Arzu ABDULLAYEV**
**NDU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarixçi-alim**

## Qarış-qarış Zəfər
## Və ya torpaqdan pay olmayır...



***Bacılar və qardaşlar, məncə 2020-ci ilin 27 sentyabrından sonra yaşananları ayrı bir tarix dərsliyi halına salıb yeniyetmə və gənclərimizə tədris etməliyik. Vətən müharibəsinin başlanması, torpaqlarımızın işağldan azad olunması ilə qazanılan şanlı zəfər, daha sonra neoimperialist qüvvələrə qarşı siyasət meydanında ortaya qoyduğumuz güc və iradə və sair və ilaxır...***

Hər keçən gün ölkənin ictimai-siyasi həyatı ilə bağlı əlamətdar bir tarixə, yeniliyə şahidlik edirik. Yadınızdadır, 2023-cü ilin aprel günləri... Hələ ötən il bu vaxt Azərbaycan Laçın sərhəd buraxılış məntəqəsində post qurub üçrəngli bayrağımızı əbədi göylərə qaldırmaqla ərazi bütövlüyünü təmin etmişdi. Bütün dünyaya bəyan olunmuşdu ki, 86,6 kvadratkilometrlik ərazidə cənab İlham Əliyevin siyasi iradəsi olmadan daş, daş üstünə qoyula bilməz. O vaxt Xankəndidə yaşayan erməni əsilli vətəndaşlarımıza da bu mesaj açıq təlqin olundu ki, yaşadığınız ərazidə Azərbaycanın qanun və qaydaları keçərlidir. Başqasından mədət ummağa dəyməz. Ya Azərbaycan bayrağı altında digər vətəndaşlarımızla birgə yaşayış, ya da Laçın sərhəd buraxılış məntəqəsi üzünüzə açıqdır. Sonrakı proseslərin nə ilə nəticələndiyini yaxşı bildiyimiz üçün mövzunu uzatmıram.

Gələk, 2024-cü ilin aprel ayında yaşananlara. Ötən həftəyə möhürünü vuracaq iki olay: 2025-ci ilin may ayınadək Qarabağda sülhü və təhlükəsizliyi təmin etmək missiyasını öz üzərinə götürən rus hərbi kontingenti Azərbaycan və Rusiya liderlərinin qarşılıqlı razılığı əsasında müddətin bitməsinə 1 il 1 ay qalmış ölkəmizi tərk edir, ardınca Ermənistan may ayının 15-nə kimi Qazaxın işğal altında olan 4 kəndinin Azərbaycana təhvil veriləcəyini açıqlayır. Doğrusu, Azərbaycan Prezidentinin siyasi sürətinə, dinamikasına yetişmək olmur. Yuxarıda qeyd etdiyim ilk faktı şərh edib qurtarmamış cənab İlham Əliyev dünya azərbaycanlılarına daha bir müjdə verdi. Bəli, Azərbaycan sevinc içərisəndədir, Qazax bayram abhavasındadır. Bir güllə belə atılmadan, bir Vətən oğlunun belə burnu qanamadan Qazax mahalının 4 kəndinə geri qayıdırıq. Cənab Əliyevin Vətəndən, torpaqdan pay olmayır mesajıdır, qarış-qarış zəfərdir, addım-addım qələbədir bunun adı. Baş SƏRKƏRDƏnin müharibədən sonra verdiyi siyasi proqnozlar tək-tək özünü doğruldur. Möhtərəm



Prezident demişdi ki, Azərbaycan və Ermənistan Cənubi Qafqazın iki qonşu ölkəsi kimi öz məsələlərini özləri həll etmək iqtidarındadır. Bunun üçün uzaq Qərbdən və okeanın o tayından qeyri-səmimi şəkildə bizə ağıl verməyə çalışan hansısa müsyö və madamların məsləhətinə ehtiyacımız yoxdur.

Baxın, Yaxın Şərqə diqqətlə baxın, həmçinin Rusiya-Ukrayna cəbhəsinə. Böyük güclərin yaratdığı mənzərə – müharibə, dağıntı, fəlakət, minlərlə uşaq ölümü, ev -eşiyə, qidaya ehtiyacı olan yüz minlərlə insan, bu da Cənubi Qafqazda sülh və əmin-amanlıq içində Azərbaycan Prezidentinin siyasi qətiyyəti ilə bir nəfərin belə ruhu incimədən geri qaytarılan Qazax mahalının 4 kəndi... Siz yox, nümunə bizik, **nümunə cənab İlham Əliyevdir, nümunə AZƏRBAYCANDIR.**

İndi həmin o 4 kənddə uzun illərdir qeyri-qanuni məskunlaşan ermənilər guya öz aləmlərində nümayiş təşkil edir, yol bağlayır, bu qərara etiraz edirlər. Amma unudurlar ki, ədalət topaldır, yavaş yeriyir, amma gec tez ünvana çatır. Sonda bədnam qonşularımıza kiçik bir tövsiyə: ekran başına keçin və Cənab İlham Əliyevin siyasi addımlarını diqqətlə izləyin!

**Muxtar RZAZADƏ**
***"Mətbuat tarixi" ixtisası üzrə II kurs magistrant***

# Siyasi səbrin və nəyi, necə nə vaxt etmək lazım olduğunu bilməyin təntənəsi



Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin Qarabağdakı Rusiya hərbi kontingentinin Azərbaycanı vaxtından əvvəl tərk etməsi ilə bağlı verdiyi açıqlama sosial mediada sürətlə tirajlanan, ölkə ictimaiyyətini həddən artıq sevindirən və fikrimcə, həftənin hadisəsi sayıla biləcək informasiya idi. Sitat: ***"Sülhməramlıların ölkəmizdən çıxarılması hər iki ölkənin ali rəhbərliyinin qərarıdır"***. Sitatın sonu.

44 günlük Vətən müharibəsinin bitməsini, düşmənin biabırçı məğlubiyyətini ifadə edən 10 noyabr 2020-ci tarixli məlum üçtərəfli Bəyanatada nəzərdə tutlan bəndlərdən biri də bu idi ki, Qarabağda müvəqqəti olaraq - daha doğrusu, 2025-ci ilin may ayınadək sülhü və təhlükəsizliyi təmin etmək üçün Rusiya sülhməramlı qüvvələri yerləşdirilir. İndi sosial mediada yayılan görüntülərdən də aydın görürük ki, sülhməramlılar qüvvədə olan müddətin bitməsinə təxminən, 1 il 1 ay qalmış şələ-şüləlerini yığıb Azərbaycanı asta-asta tərk edirlər. Artıq proses hər iki ölkənin Müdafiə nazirlikləri səviyyəsində icra edilir. Bəs biz bu siyasi mərhələyə necə gəlib çıxdıq və əmin-amanlığı təmin etmək üçün ötən 4 ildə Qarabağa ezam olunan rus hərbçilərin fəaliyyətini necə xatırlayacağıq?

Əvvəl-əvvəl sülhməramlıların müvəqqəti olaraq Qarabağ bölgəsinə yerləşdirilməsi hələ 2020-ci ildə ölkə ictimaiyyəti tərəfindən heç də birmənalı qarşılanmamışdı. Hətta bəzi qüvvələr var idi ki, biraz da irəli gedib bu siyasi təşəbbüsə Azərbaycanın Rusiya tərəfindən ilhaqı kimi baxırdılar. Bunu da əsas gətirirdilər ki, şimal qonşumuz tarixən bizə işğal obyekti gözü ilə baxıb. Gülüstan və Türkmənçay sülh müqavilələri, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq siyasi fəaliyyətinə son qoyulması, 90-cı illərin məlum hadisələri və sair və ilaxır...

Bizi ən çox narahat edən isə bu kimi siyasi mesajların məhz sapı özümüzdən olan baltalar tərəfindən cəmiyyətə sırınması idi. Xarici ianə hesabına özünə avrosayaq güngüzəran quran sapı özümüzdən olan baltalar Azərbaycanın Vətən müharibəsindən sonra regionda yaratdığı dağ boyda reallığı görmək əvəzinə, Müzəffər Liderin siyasi addımlarına özlərinə sərf edən formada don geyindirir və bu ideologiyanı aşılamağa çalışırdılar ki, guya düşmən üzərində qazanılan o şanlı Qələbənin miqyası elə də böyük deyil. Sanki Qarabağı ermənidən alıb rusa vermişik kimi imic yaradan "siyasi proqnoz" verənlər bu gün siçanın deşiyini satın alıb qınlarına çəkiliblər.

İndi o qüvvələrə suveren, ərazi bütövlüyünü təmin etmiş ölkənin vətəndaşı kimi səslənib deyirəm: xanımlar və cənablar, ağlınızı başınıza yığın. Sizi bilmirəm, biz buna deyirik siyasi səbrin və ***nəyi, necə nə vaxt etmək lazım olduğunu bilməyin təntənəsi.*** Azərbaycan Prezidentinin sözü hər zaman imzası qədər keçərlidir. O, praqmatik, uzaqgörən, ölkəsinin mənafeyini və siyasi maraqlarını hamıdan yaxşı qorumağı bacaran LİDERdir. Virtual studiyadalarda oturub Vətən müharibəsi başa çatandan sonra Qarabağ ermənilərinin həmin regionda məskunlaşması, qondarma rejimin tör-töküntülərinin ərazimizdə saxlanılması, Xankəndinin "peşkaş edilməsi" və ən nəhayət, rus sülhməramlı qüvvələrinin bir daha Azərbaycanı tərk etməyəcəyi ilə bağlı verdiyiniz bütün "proqnoz"lar patlamış şar effekti yaratdı. Qarabağdakı Rusiya hərbi kontingenti Azərbaycanı vaxtından əvvəl tərk etməsi artıq faktdır. Faktdan isə böyük fakt yoxdur.

Bəs rus hərbi kontingeti ötən 4 ildə öz missiyasını hansı səviyyədə yerinə yetirdi, çatışan və çatışmayan cəhətlər nələr idi, təktərəfli mövqe nümayiş etdirildimi? Bütün bu sualların cavabını isə hörmətli oxucunun öz ixtiyarına buraxıram...

**Muxtar RZAZADƏ**
***"Mətbuat tarixi" ixtisası üzrə II kurs magistrant***

Tarixin qanlı sınağında silah, güc, müharibələri ilə qalib gəlib, var olmağa çalışan millətlər, mədəniyyət mübarizəsində məğlub olub, tarixin tozlu səhifələrində əsir düşmüşdürlər. Tarix anladılanlarla yox, geridə qoyulan, ən çox var olduğunun təcəllisi nişanələrlə-mədəniyyətlə dəyərlənir.

# Varlığın qutlu olsun, Naxçıvan!



"Turana qılıncdan daha kəskin ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!", – deyən Cavid Əfəndinin ruhunu təcəlli edən, mədəniyyət yuvası Naxçıvan. Mədəniyyətin böyük ruhunu qəbul edərək ona həyat verən bu qutlu yurd onlarla şairlərin, yazıçıların, alimlərin rəssamların ruhunun təcəllisi olmuşdur. Mədəniyyəti ağuşuna alan, Cavid, Ordubadi, Cəlil, Araz bulağından Azərbaycan poeziyasına axan, yüzlərlə dahinin ruhunun yetişdiyi torpaq...

Kiçik vücuddan böyük ruhlar yetişdirmiş, siyasi, mədəni tarixin dərinliklərində dərin iz buraxmışdır. Tarix boyu yaşadığı müharibələr, işğallar, əzablar ilə əzələnmiş, mədəniyyəti vasitəsilə bu uçurumu aşmış, bu mübarizədən vüqarla çıxmışdır. Sovetlərin tüğyan etdiyi zamanda da azadlığın ilk nəbzi, döyüntüləri bu şəhərdə duyulmuş, 90-larda parlamışdır.

Sənin tarixin, hekayən köklərinin çox-çox dərinliklərində yatır. 1924-dən bu günə, bir əsrlik tarixində yaşınla yaşatdığın, mədəniyyətin, tarixin, varlığın qutlu olsun, Naxçıvan!

**Nəzrin ABBASLI**
**Jurnalistika ixtisası üzrə II kurs tələbəsi**

# Gülay Tahirli yazır: Jurnalistika – tələsik yaradılan ədəbiyyat



*Mark Tven, Ernest Heminquey, Con Steynbek, Cəlil Məmmədquluzadə... Ədəbiyyatın bu tərəfində boya yoxdur, bəzək yoxdur, döngələrinə, cığırlarına ayaq basılmayıb, bütün yollar təmtəzədir, bu tərəfdə qulaqbatıran səslər yoxdur, sükut var, adamın ruhunu üşüdən, qanını donduran sükut... Arabir fəryad da olur, qulaqlar eşitməz, ancaq ürəklər duyar. Ədəbiyyatın bu tərəfində bir sadə dil var ki...*

Hər şey olduğu kimidir, olduğu kimi görünən, amma görülmək istənməyən... Bu tərəfdə bütün mənzərələr sözə öz rəngində köçürülür, bütün adamlar öz dilində danışır, səslər öz melodiyasına sadiq qalır. Bu sadə dil ən mürəkkəb güzgüdür, bircə dəfə də başımızı qaldırıb baxa bilmədiyimiz o güzgülərin mənzərəsi başqa heç nəyə bənzəmir. O güzgülər gah susub ağrıdır, gah da çilik-çilik olub ruhumuza batır. Bəli, elə indi də. Aradan keçən illərə, qərinələrə rəğmən.... Bu sadə dil baş qəhrəmanları sadə adamlar olan əsərlərin dilidir. Steynbekin Corcu, Lennisi, Joadları, Heminqueyin balıqçı babası, Robertosu, Mariyası, Mirzə Cəlilin Məhəmmədhəsən əmisi, Novruzəlisi... Onlar gündəlik həyatda tez-tez rast gəldiyimiz adamların obrazlarıdır.

Maraqlıdır ki, bu sadə dilin yazıçıları həm də jurnalist olublar. Üç müharibədə iştirak edən, reportajın ustası sayılan Heminqueyin "Əcəl zəngi"ni yazması təsadüf idimi? Ya da köçkünlərin həyatlarından reportajlar hazırlayan Steynbekin ömrü yollarda keçmiş Joadlardan bəhs edən "Qəzəb salxımları"nı yazması necə? Kaliforniya köçkünlərindən xəbərlər hazırlamaq üçün aylarla düşərgələrdə qalan Stenbeyk, görəsən, o hadisələrin, o anların gələcəkdə bir romana köçəcəyini o zaman bilirdimi? Ömür boyu cəhalətlə savaşmalı olan, əlindəki qələmi silaha çevirən Mirzə Cəlilin məqalələri gələcək hekayələrinin eskizi deyildimi? Mirzə Cəlilin Steynbekdən, Heminqueydən əsas fərqi o idi ki, o, qələminə tuş gələnlərin ağrısını başqa bir yerə getməyə gərək qalmadan - elə öz ölkəsində, öz ətrafında duymuşdu, cəhalət içində tək aydın olmaqdan daha ağrılı, daha çətin nə var ki? Mirzə Cəlilin missiyası da daha böyük idi - xalqı qəflət yuxusundan ayıltmaq! Xalqı oyanmaq üçün Mirzə Cəlillərdən çox, Molla Nəsrəddinlərə ehtiyac duyur. Mirzə yeri gələndə Molla Nəsrəddin də oldu...

Jurnalistika ilə ədəbiyyatın, doğrudan da, möhtəşəm harmoniyası var. Mənə elə gəlir ki, fənlərarası əlaqələrdə bu ikisindən çox bir-birinə bağlı olan sahələr yoxdur. Hər ikisinin qaynağı müqəddəsdir - SÖZ! Axı "Söz Tanrı dərgahındaydı..." Jurnalistika böyük ədəbiyyatın ilkin mərhələsi ola bilir, məqalələr hekayələrin, reportajlar romanların anası ola bilir. Bax o anda nə məqalə müəllifi bunun fərqindədir, nə də reportaj hazırlayan... Ədəbiyyatda köşə yazarlığında başlayıb "Nobel" yazarlığında bitən bir yol da var...

Heminquey "The Kansas Star"da keçən illəri üçün belə deyirdi: "Star"da sadə bir başlığı yazmağı öyrənməyə belə çətinlik çəkirdiniz. Bu, hamı üçün faydalı bir şeydir. Qəzetdə işləmək gənc bir yazara zərər verməz, hətta kömək edər, əgər ondan vaxtında ayrılmağı bacararsa..." Bəzən gənc yazıçılar jurnalistikanın onların enerjisini sovurduğundan şikayətlənirlər. Yanaşma çox şeyi həll edir, hər şey bizim baxdığımız kimidir. Gözəl baxsaq, gözəlliyini, pis baxsaq, mənfi tərəflərini görəcəyik. Nəyin nə qədər faydalı olduğunu uzaqlaşdıqdan sonra anlayırıq - insan təbiəti... Heminqueyin fikrinə gəldikdə isə, haqlı olduğunu düşünürəm.

Qəzet yazmağı öyrədir, qəzet məktəbdir, sadəcə yazmağı yox, həm də hamının dilində danışmağı, ən əsası isə kəşf etməyi. Gore Vidal Steynbek haqqında deyir ki, o, nələrisə icad etmədi, onları tapdı. Steynbekin Kaliforniya köçkünləri haqqında bir yazısı qarşıma çıxdı. Aclığı necə təsvir edib, İlahi! Bu aclıq mənə necə də tanış gəlirdi, bu, həmin aclıq idi - "Qəzəb salxımları"ndakı - Joadların aclığı. Bu aclığın təsvirində təkcə söz yoxdur, həm də foto var, səs var, ağ-qara ekrandan gəlib keçən video-görüntülər var. O reportajlar "Qəzəb salxımları"nın toxumları idi, onları Steynbek tapdı, Gore Vidalın dediyi kimi, icad etmədi, məhz tapdı. Tapdı və jurnalistikadan ədəbiyyata, reportajdan böyük bir romana gətirdi. Jurnalistikadan ədəbiyyata gələn yazıçıların obrazlarının nəfəsi daha aydın duyulur, üzləri daha aydın seçilir. O obrazlar bizə daha çox tanış gəlirlər, axı onlar ətrafımızdadırlar,




bizdəndirlər, daim bizimlədirlər. Biz onlara Platon baxışından deyil, Aristotel baxışından baxmalı oluruq, başımızı göyə qaldırmırıq, əvvəlcə ətrafa baxırıq, gözümüzü yummuruq, bacardığımız qədər açırıq. Əslində, insan uzaqları yaxından daha yaxşı görür, niyəsə yaxına gələndə gözlər yumulur. İnsan ən çox ətrafına kordur... Jurnalistikadan keçib gələn ədəbiyyat gözləri yaxını görmək üçün açılmağa məcbur edir, bu ədəbiyyat uzaqlardan çox, yaxınların dostudur. Özümüzə ən yaxın olan "öz"ə belə gözlərimizi, qulaqlarımızı qapadığımız zamanlar olur, bu ədəbiyyat həm də "öz"ün dostudur.

Jurnalistika ortaya cəmiyyət problemi qoyur, problemi işıqlandırır, həllinə çalışır. Jurnalistikadan qaynaqlanan ədəbiyyat da belədir, cəmiyyət problemi ortaya qoyur və fikrimcə, bu problem ədəbiyyatda öz həllinə jurnalistikadan daha çox yaxınlaşır. Con Steynbek "Qəzəb salxımları" əsərində Amerikanın 1930-cu illərdə keçirdiyi iqtisadi böhran dönəmindən, insanların necə aldadılmasından, ümidlərini özləri ilə birlikdə götürüb Kaliforniyaya yolçuluqlarından bəhs edir. Bu mövzuda Steynbekin çoxlu reportajları da var. Amma indi o reportajlar deyil, "Qəzəb salxımları" oxunur. Oxşar problemlər fərqli-fərqli ölkələrdə yenə də var, dünya həmin dünyadır, insan həmin insandır. Ona görə ədəbiyyat problemə diqqəti uzun illər, əsrlər, hətta əbədilik çəkə bilir. Bəs həll edə bilirmi? Əslində, bu, bir başqa mövzudur... Bəlkə də, ədəbiyyat problemləri dünya, dövlət, kütlə səviyyəsində həll edə bilmir, amma fərdlər mütləq durulur, durulur ki, duruluq yaratsın... Bu gün biri, sabah ikisi, o biri gün beşi - belə-belə, yavaş-yavaş...

İngilis şairi, tənqidçisi Matthev Arnoldun sözləri ilə desək: "Jurnalistika tələsik yaradılan ədəbiyyatdır". Tələsik yazılan hər xəbər potensial hekayədir. Tələsik hazırlanan hər reportaj potensial romandır. İndi yazılan bütün mətnlər həm də gələcək mətnlər üçün məşqdir. Düşünürəm ki, təkcə jurnalistika yox, bir yazarın həyatında baş verən bütün hadisələr, səslər, görüntülər keçib getmir, ruhun bir kənarında dayanıb bədii mətnə çevriləcəkləri günü gözləyirlər...

**Gülay TAHİRLİ**
***Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müəllimi***

**Baş redaktor:**
**ŞƏHLA ŞİRƏLİYEVA**
**shshahla36@gmail.com**

*Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi*
*Telefonlar: 544-08-61 (13-60)*
*yenifikir.ndu@gmail.com*

*Qeydiyyat №330*
*Sifariş №*
*Tiraj 300*

*DİZAYNER: Muxtar RZAZADƏ*
*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.*